# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 100

**Bakı şəhəri** «30» dekabr 2016 il

**"Tibbi statistika sahəsində işin təkmilləşdirilməsi barədə"**

Azərbaycan Respublikası Prezidentinin 25 may 2006-ci il tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi haqqında Əsasnamə" nin 8.4-cü və 14.5-ci bəndlərini rəhbər tutaraq tibb müəssisələrinin tibbi qeydiyyat sənədlərinin nizama salınması, səhiyyə müəssisələrinin fəaliyyətini əks etdirən məlumatların tamlığını və düzgünlüyünü təmin etmək məqsədilə

ƏMR EDİRƏM:

1. Tibbi qeydiyyat sənədlərinin nümunələri təsdiq edilsin (1 nömrəli əlavə).
2. Tibbi inzibati məlumat hesabatı formaları təsdiq edilsin (2 nömrəli əlavə).
3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, 01.04.2017-ci il tarixindən bu əmrlə təsdiq edilmiş tibbi statistika sənədləri tətbiq edilsin.
4. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İnformatika və Statistika İdarəsinin rəisi Ş.Xasiyevə tapşırılsın ki, bu əmrlə təsdiq edilmiş tibbi statistika sənədlərinin tibb idarə və müəssisələrində tətbiqinə və istifadəsinə nəzarət ilə baglı zəruri tədbirlər həyata keçirilsin.
5. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, tibbi statistika sənədlərinin nəşri ilə bağlı müvafiq vəsaitlərin ayrılmasını təmin etsin.
6. Əmrin icrasina nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**